**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ELMİ-TƏDQİQATLARIN NƏTİCƏLƏRİNİN KOMMERSİYALAŞDIRILMASI PROSESLƏRİNİN GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Leyla Fəxrəddin qızı Əhmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Şəfa Tiflis oğlu Əliyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Məhərrəm Cəlal oğlu Hüseynov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Nurəngiz Yanvar qızı Mikayılova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Mahmud oğlu Xeyirxəbərov**

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor vəzifəsini icra edən
**Möhübbət Musa oğlu Hüseynov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir qlobal transformasiyalar şəraitində iqtisadiyyatın şaxələndirilməsi, yeni iqtisadi yanaşmaların formalaşdırılması, iqtisadi problemlərin həllində daha səmərəli mexanizmlərin hazırlanması və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu kimi məsələlərdə elmi-tədqiqatlar (ET) həlledici rola malikdir. Təsadüfi deyildir ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin hazırkı nailiyyətlərinin əsasında elmin inkişafı, ET-ın daha səmərəli təşkili, elmi-texniki yeniliklərin intensivliyinin stimullaşdırılması, bir sözlə innovasiyalar və texnologiyaların davamlı şəkildə inkişaf etdirilməsi, dövlətin elm və texnologiyaların inkişafı ilə bağlı gördüyü ardıcıl tədbirlər, tətbiq etdiyi dəstək mexanizmləri və s. dayanır. Bu amillər baxımından, ET-ın aparılmasının daha səmərəli təşkili, bununla bağlı institusional, iqtisadi, təşkilati, hüquqi, maliyyə və digər mexanizmlərin sistemli şəkildə inkişaf etdirilməsi, xüsusilə ET-ın nəticələrinin müvafiq iqtisadiyyat sahələrinə səmərəli və məhsuldar olaraq tətbiq olunması, müasir prizmadan baxsaq, ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin yüksək səviyyədə təşkili mühüm strateji əhəmiyyətə malikdir.

Qeyd edək ki, ET-ın nəticələrinin kommersiyalaşdırılmasının səmərəli üsulları və mütərəqqi təcrübəsi daha çox Qərbi Avropa ölkələrində, ABŞ,Yaponiya, Çin, Cənubi Koreya və digər bu kimi ölkələrdə formalaşmışdır. Bu ölkələrdə iqtisadiyyatın innovasiyalaşdırılması, ET-ın aparılmasına marağın artırılması, bu sahədə potensial iştirakçıların moblizasiyası, texnoparklar, klasterlər vasitəsilə onlar üçün əlverişli şəraitin yaradılması, innovativ inkişafın intensivləşdirilməsi məqsədilə virtual fəaliyyət, ticarət platformalarına (texnoloji transfer şəbəkələrinə) çıxışların təmin edilməsi və innovasiya məhsullarının istehsalının satimullaşdırılması tədbirləri geniş yayılmışdır. Dünyanın bir sıra ölkələrində ET-ın nəticələrinin kommersiyalaşdırılması və tətbiqi ilə bağlı dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiq edilməsi, bunun üçün büdcə xərclərinin yönəldilməsi, subsidiyaların ayrılması, vergi və gömrük güzəştlərinin müəyyənləşdirilməsi, məqsədli investisiyaların yatırılması təmin olunur.

Analoji problemlər və məsələlər Azərbaycan üçün nisbətən yenidir, yəni ölkəmizdə birmənalı şəkildə elm və texnologiyaların, innovasiyaların inkişaf proseslərinin tələb olunan səviyyədə olduğunu qeyd etmək mümkün deyildir. Artıq ölkə iqtisadiyyatının strukturunda perspektivli qeyri-neftqaz təmayüllü iqtisadiyyat sahələrinin sırası genişlənməkdədir. Eyni zamanda, Azərbaycanda elm və texnikanın inkişafı, yüksək texnologiyaların tətbiqi, informasiya, texnologiya və innovasiyalar bazarının formalaşdırılması istiqamətlərində davamlı işlər görülməkdədir.

Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin hədəfləri çərçivəsində müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları (İKT) məhsullarının geniş çeşidinin hazırlanması, elm və texnolologiya bazarlarına çıxarılması prioritetləri reallaşdırılmaqdadır. Bu məqsədlərlə elmə çəkilən xərclərin, xüsusilə elmi-tədqiqat layihələrinə yönəldilən vəsaitlərin əhəmiyyətli səviyyədə artırılması tələb olunur və son 10-15 il ərzində bu istiqamətdə dövlət büdcəsindən elmə çəkilən xərclərin həcmi bir neçə dəfə artırılsa da, fikrimizcə, qeyd olunan xərclərin həcmi hələ də aşağı səviyyədədir və ayrılan vəsaitlərin əhəmiyyətli hissəsi elmi-tədqiqat müəssisələrinin əməkhaqqı və ona bərabər sosial ayırmalarına, vergi ödənişlərinə yönəldilir.

Məlumdur ki, beynəlxalq təcrübədə ET-ın nəticələrinin kommersiyalaşdırılması məqsədilə İKT-dən istifadəyə böyük üstünlük verilir. Belə ki, İKT-nin inkişafının sürətləndirilməsi və informasiya cəmiyyətinin inkişaf etdirilməsi, əksər dünya ölkələrində prioritet və strateji vəzifələr kimi baxılır. Ölkə Prezidentinin 20 sentyabr 2016-cı il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nda informasiya cəmiyyətinin formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində mühüm prioritetlər müəyyənləşdirilmiş və onların həyata keçirilməsi prosesləri başlamışdır. Eyni zamanda, Azərbaycanda elmin inkişafı, texnologiyalar və innovasiyalar bazarlarının inkişaf etdirilməsi istiqamətində, o cümlədən elmi-

tədqiqat xidmətlərinin kommersiyalaşdırılması tədbirlərinin sürətləndirilməsində yeni çağırışlar ortaya çıxmışdır.

Bu baxımdan, elmi-tədqiqat müəssisələrində və universitetlərdə əldə olunmuş ET-ın nəticələrinin fəal şəkildə tətbiqinə nail olunması tədbirlərinin sürətləndirilməsi vacib şərtlərdəndir. Elmi fəaliyyətin və ET-ın səmərəliliyinin artırılmasının hüquqi bazasının möhkəmləndiyini də qeyd etmək mümkündür. 14 iyun 2016-cı ildə qəbul olunmuş "Elm haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsipləri, innovasiya fəaliyyətinin məqsədləri, elmi nailiyyətlərin stimullaşdırılması üzrə təşkilati-hüquqi əsasları müəyyənləşdirilmişdir. Fundamental, tətbiqi və eksperimental tədqiqatların təşkili, ET-ın nəticələrinin ekspertizası, tətbiqi, aprobasiyası və yüksək ixtisaslı elmi kadrların hazırlanması tədbirlərinin hüquqi əsaslarının təkmilləşdirilməsi və tənzimlənməsi baxımından hüquqi baza gücləndirilmişdir.

Yaxın perspektivdə bu istiqamətlərdə görüləcək işlərin dərindən təhlil olunması, araşdırılması və obyektiv olaraq qiymətləndirilməsi vacibdir. Ölkədə fəaliyyət göstərən elmi-təşkilati strukturların səmərəliliyinin artırılması zəruridir. Ölkə Prezidentinin 2022-ci il 15 oktyabr tarixli fərmanı ilə "Azərbaycan Elm Fondu" Publik hüquqi şəxsin yaradılmasına baxmayaraq, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması layihələrinin reallaşdırılmasında əhəmiyyətli irəliləyiş hələ də baş verməmişdir. Bir sözlə, Azərbaycanda ET-ın nəticələrinin elmi ictimaiyyətə və sənaye strukturlarına, potensial investorların nəzərinə çatdırılması üçün kifayət qədər əlverişli bir şəraitin yaradılması təmin olunmalıdır. İlk növbədə isə elmi-tədqiqaların nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsinə nail olunmalı, bunlarla bağlı problemlərin fundamental şəkildə baxılması, öyrənilməsi, problemlərin açıqlanması, dövrün tələblərinə uyğun şəkildə həlli yollarının müəyyənləşdirilməsi və fəaliyyət mexanizmlərinin hazırlanması zərurəti qalmaqdadır.

Bu qeyd edilənlər dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirmişdir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə əlaqədar olaraq göstərə bilərik ki, ET-ın daha səmərəli təşkili, onların

nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi problemləri, həmin problemlərin həlli yolları, məhsuldar fəaliyyət mexanizmləri və üslubları ilə bağlı ölkəmizin, eyni zamanda xarici alim-tədqiqatçıların elmi əsərləri vardır. Bu sırada Azərbaycanlı alimlərdən akademik Z.Ə.Səmədzadə, R.M.Əliquliyev, Ə.C.Muradov, E.A.Quliyev, B.X.Ataşov, T.N.Əliyev, Ş.T.Əliyev, A.D.Hüseynova, Ə.Q.Əliyev, A.N.Muradov və başqalarının elmi araşdırmalarını qeyd etmək olar. Bunlarla yanaşı, ET-ın konseptual olaraq qiymətləndirilməsi, prioritetliyinin təmin edilməsi, ET-ın nəticələrinin kommersiyalaşdıırlması prosesləri ilə bağlı problemlərin həlli yollarının araşdırılması istiqamətlərində bir sıra xarici tədqiqatçı-alimlərin T.Caulfield, S.H.Harmon, Y.Joly, N.Kholiavko, A.C.Fletcher, P.E.Bourne, A.İ.Vladimirov, Y.P.Qarmaşova, A.K.Dementeyeva, S.E.Maykova, Y.V.Markova, V.İ.Muxopad, Y.V.Neçepurenko, A.E.Ustinov və digərlərinin elmi əsərlərini göstərmək olar.

Qeyd edilənlərlə bərabər, zənnimizcə, hazırkı köklü qlobal transformasiyalarla bağlı olaraq, elmi-tədqiqat işlərinin maksimum səmərəli şəkildə təşkil edilməsinə, elm və texnologiyalar bazarının inkişafının sürətləndirilməsinə, ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsinə nəzəri-praktiki və metodoloji yanaşmaların yenilənməsi, daha məhsuldar fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi vacibdir. Məhz bu amillər baxımından ET-ın nəticələrinin kommersiyalaşdırılması nəticələrinin genişləndirilməsi problemlərinin həlli yolları və daha səmərəli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üzrə elmi-fundamental tədqiqatların dərinləşdirilməsi tələb olunur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırması proseslərinin genişləndirilməsini həyata keçirən elmi-tədqiqat müəssisələri, strukturlar, universitetlər, elmi-texnoloji, sənaye və innovasiya fəaliyyəti istiqamətində ixtisaslaşan subyektlərdir.

Tədqiqatın predmetini isə ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi və Azərbaycanda bu istiqamətdə fəaliyyətin daha səmərəli şəkildə tənzimlənməsi üsulları, vasitələri və qanunauyğunluqları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi müasir dövrdə ET-ın nəticələrinin kommersiyalaşdırması proseslərinin genişləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, bununla bağlı müvafiq mexanizmlərin hazırlanması və Azərbaycanda elmi-tədqiqatların nəticələrinin daha geniş olaraq istehsal və xidmət proseslərinə tətbiqinin təmin edilməsindən ibarətdir. Bu məqsədə çatmaq üçün tədqiqat işinin strukturuna uyğun olaraq bir sıra vəzifələr qarşıya qoyulmuşdur:

- qlobal transformasiyalar şəraitində ET-ın nəticələrinin tətbiqi ilə əlaqədar olaraq kommersiyalaşdırma problemlərinin nəzəri baxımdan araşdırılması;
- hazırkı şəraitdə texnologiyaların və innovasiyaların inkişaf etdiyi bir dövrdə ET-ın nəticələrinin kommersiyalaşdırılmasının metodoloji xüsusiyyətlərinin araşdırılması və müəyyənləşdirilməsi;
- dünya ölkələrində ET-ın nəticələrinin kommersiyalaşdırılması ilə bağlı fəaliyyət strategiyalarının öyrənilməsi, səmərəli mexanizmlərin hazırlanması və Azərbaycanda tətbiqi imkanlarının ümumiləşdirilməsi;
- Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin obyektiv təhlilinin və qiymətləndirilməsinin aparılması üçün elmi-tədqiqat işlərinin müasir vəziyyətinin təhlil edilməsi;
- Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təhlil olunması və qiymətləndirilməsi;
- ET-ın nəticələrinin kommersiyalaşdırılması məqsədilə tələb olunan biznes mühitinin formalaşdırılması və inkişaf etdirilməsi imkanlarının araşdırılması;
- qlobal çağırışlar şəraitində Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin daha fərqli və üstün cəhətlərinin və fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;
- ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərində innovasiya-investisiya cəlbediciliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsi;
- Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılmasının genişləndirilməsi perspektivlərinin öyrənilməsi, daha səmərəli

fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, bunlarla bağlı təkliflər və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində, ilk növbədə təhlil, sintez, müqayisəli təhlil, statistik təhlil, ümumiləşdirmə və kompleks yanaşma kimi elmi metodlardan istifadəyə üstünlük verilmişdir. Bunlarla bərabər, dissertasiyanın strukturunda yer almış problemlərə dair müxtəlif tədqiqatçıların nəzəri-metodoloji yanaşmalarına və fikirlərinə də diqqət yetirilmişdir. Eyni zamanda, müasir dövrdə elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi baxımından, mütərəqqi dünya təcrübəsi, bununla bağlı fəaliyyət mexanizmləri və səmərəli üslublar da nəzərə alınmışdır.

Bunlarla yanaşı, Azərbaycan Respublikasının müxtəlif qanunları və hüquqi aktları, normativ sənədləri, ölkə prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının, o cümlədən nazirliklərin, agentliklərin normativ sənədləri, elmi-tədqiqat institutlarının metodoloji analitik materiallarından da istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar bunlardır:**

- müasir dövrdə ET-ın nəticələrinin tətbiqi ilə bağlı kommersiyalaşdırma problemlərinə yeni yanaşmalar təmin olunmalı və uzun illər ərzində problem kimi qalan bu məsələnin daha səmərəli həlli yollarının axtarılması və müəyyənləşdirilməsi zərurətə çevrilmişdir;
- dövrün obyektiv reallıqlarından yanaşmaqla, müasir texnologiyalar və innovasiyalar bazarının inkişaf etdiyi şəraitdə ET-ın nəticələrinin kommersiyalaşdırılmasının metodoloji xüsusiyyətlərinin daha dərindən araşdırılması və maksimum səmərəli üslubların müəyyənləşdirilməsi tələb olunur;
- dünya səviyyəsində artıq formalaşmış və özünü müsbət cəhətdən təsdiq etmiş mütərəqqi təcrübələr nəzərə alınmaqla, ET-ın nəticələrinin kommersiyalaşdırılması üzrə səmərəli mexanizmlərin hazırlanması və Azərbaycanda tətbiq edilməsi proseslərinin genişləndirilməsi zərurəti yaranmışdır;
- Azərbaycanda elmi-tədqiqat təşkilatlarının və universitetlərin fəaliyyəti nəzərə alınmaqla, ET-ın nəticələrinin

kommersiyalaşdırılması proseslərinin daha dərin təhlilinə və bu sahədəki mövcud vəziyyətin obyektiv qiymətləndirilməsinə ehtiyac vardır;

- Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılması üzrə mövcud mexanizmlərin təhlil olunması və bu sahədə biznes mühitinin yaxşılaşdırılması imkanlarının qiymətləndirilməsi vacibdir;
- Azərbaycanda yeni çağırışlar əsas götürülməklə, ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin sürətləndirilməsindən ötrü elmi-tədqiqat müəssisələrində, universitetlərdə və sənaye subyektlərində kommersiyalaşdırma proseslərinin gücləndirilməsi yollarının müəyyənləşdirilməsi daha çox səmərə verə bilər;
- yeni şəraitdə ET-ın nəticələrinin kommersiyalaşdırılması istiqamətində ölkəmizdə innovasiya-investisiya cəlbediciliyinin artırılması və ET-ın nəticələrinin kommersiyalaşdırılması perspektivlərindən yanaşmaqla, bu sahədə daha səmərəli fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi tələb olunur.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- elmi-tədqiqatların mövcud problemlərindən çıxış etməklə, elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının təşkili proseslərində müasir elmi nəzəri-metodoloji yanaşmalar araşdırılmışdır;
- elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması proseslərinin intensivləşdirilməsi və genişləndirilməsi məqsədilə, texnologiya transferinin idarəedilməsi konsepsiyasının tərkib hissələri müəyyənləşdirilmiş və əsaslandırılmışdır;
- Azərbaycanda elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması problemləri və proseslərinin GZİT təhlili aparılmaqla, bu istiqamətlərdə güclü və zəif tərəflər, mövcud imkanlar və gözlənilən təhlükələr aşkar edilmişdir;
- elmi-tədqiqat müəssisələrinin, təşkilatlarının və universitetlərin bazar iqtisadiyyatı şəraitində elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması fəaliyyətinin qiymətləndirilməsi üzrə göstəricilər bloku əsaslandırılmış və hazırlanmışdır;

- Azərbaycanda universitetlərin elmi-tədqiqatlarının nəticələrinin kommersiyalaşdırılma obyektləri kimi təsnifatı hazırlanmış və kommersiyalaşdırma mexanizminin əsas məntiqi mərhələlərinin blok-sxemi verilmişdir;
- Azərbaycanda elmi-tədqiqatların təşkili və nəticələrinin kommersiyalaşdırılması proseslərinin kompleks reallaşdırılmasının alqoritm – sxemi işlənib hazırlanmışdır;
- elmi-tədqiqatların nəticələrinin səmərəli olaraq kommersiyalaşdırılması proseslərinin əsas xüsusiyyətləri müəyyənləşdirilmiş və sxematik olaraq verilmişdir;
- təhsil və elmi müəssisələrin elmi-tədqiqatlarının nəticələrinin kommersiyalaşdırılması istiqamətində səmərəli fəaliyyətin təmin edilməsi mexanizminin tərkib elementlərinin blok-sxemi hazırlanmışdır;
- yeni çağırışlar şəraitində Azərbaycanda elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi və intensivləşdirilməsi istiqamətləri müəyyənləşdirilmiş, müvafiq təklif və tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işində alınmış elmi nəticələrdən və hazırlanmış təkliflərdən Azərbaycanda elmi-tədqiqat müəssisələrinin və universitetlərin fəaliyyətində formalaşan ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi üzrə kompleks və sistemli tədbirlərin görülməsində, tədbirlər planının və fəaliyyət strategiyalarının hazırlanmasında istifadə etmək mümkündür. Eyni zamanda, bu istiqamətlərdə məqsədli dövlət proqramlarının hazırlanmasında, dövlət siyasətinin təkmilləşdirilməsində, ET-ın daha səmərəli təşkili və ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin intensivləşdirilməsi üzrə islahatların aparılmasında tədqiqat işinin sonunda verilmiş elmi-praktiki nəticələrdən bəhrələnmək olar. Bunlarla bərabər, tədqiqatda əsaslandırılmış elmi-nəzəri müddəalardan və materiallardan dərsliklərin, həmçinin dərs vəsaitlərinin, mühazirələrin hazırlanmasında istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universitetində elmi-tədqiqat işlərinin ümumi istiqa-

mətinə uyğun olaraq, müasir dövrdə aktual məsələlər kimi daimi fəaliyyət göstərən elmi seminarlarda müzakirə edilmiş və bəyənilmişdir.

Dissertasiya işinin mövzusuna dair 9 elmi əsər, o cümlədən, 6 məqalə və 3 tezis, onlardan 1 məqalə və 1 tezis xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda dərc olunmuşdur. Tədqiqatın başlıca müddəalarını özündə əks etdirən "Azərbaycanda elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin idarəetmə mexanizmlərinin gücləndirilməsi məsələləri" (Sumqayıt, 2020), "Universitetlərdə elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik infrastruktur aspektləri" (Sumqayıt, 2020-ci il) və "Проблемы и перспективы повышения эффективности бизнес-процессов в диверсификации научно-исследовательских услуг" (Москва, 2021) adlı tezisləri dərc olunmuşdur.

Bundan əlavə, "Elmi-tədqiqat xidmətlərinin diversifikasiyalaşdırılmasında biznes proseslərinin strateji əhəmiyyəti" (Bakı, 2019), "Elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasının nəzəri-metodoloji aspektləri" (Bakı, 2020), "Elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılmasının intensivləşdirilməsi yolları" (Bakı, 2020), "Azərbaycanda elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin tətbiqi istiqamətləri" (Bakı, 2021), "Elmi-tədqiqat müəssisələrində biznes proseslərinin investisiya cəlbediciliyinin artırılması məsələləri" (Bakı, 2022) və "Важность усиления бизнес – процессов в расширении научно-исследовательских услуг в Азербайджане" (Москва, 2022) adlı məqalələri dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş (17178 işarə), I fəsil (53322 işarə), II fəsil (61837 işarə), III fəsil (84188 işarə), nəticə (13950 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (22289 işarə) üzrə ümumi həcm 278414 işarədən ibarətdir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş

ədəbiyyat siyahısı istisna olmaqla 230475 işarədir. Dissertasiyada 14 cədvəl, 11 şəkil və 5 diaqram verilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi və s. verilmişdir.

Dissertasiyanın **"Elmi-tədqiqatlarin nəticələrinin kommersiyalaşdirilmasi problemlərinə nəzəri-metodoloji yanaşmalar"** adlı **birinci fəslində** elmi-tədqiqatların nəticələrinin tətbiqi ilə bağlı kommersiyalaşdırılma problemlərinin nəzəri əsasları, müasir texnoloji dövrdə elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının metodoloji xüsusiyyətləri və elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının səmərəli təşkili üzrə dünya ölkələrinin təcrübəsi araşdırılmışdır.

Elmi-tədqiqat işlərinin təşkili bununla bağlı tədbirlərin görülməsi, stimullaşdırıcı mexanizmlərin işlənməsi və eyni zamanda, alınmış nəticələrin sistemləşdirilərək istehsal proseslərinə tətbiq olunması, başqa sözlə kommersiyalaşdırılması məsələləri dünya səviyyəsində aktual məsələlərdən biri kimi xarakterizə olunur. Buna görə də, ET işlərinin genişləndirilməsi hər bir ölkədə mühüm əhəmiyyət kəsb edir və dünya səviyyəsində bunlar əsasən aparıcı elmi-texnoloji mərkəzlərdə və qabaqcıl universitetlərdə həyata keçirilir.

Məlumdur ki, universitetlərdə və elmi-tədqiqat müəssisələrində geniş həcmli tədqiqatların aparılmasına tələb olunan maliyyə resurslarının formalaşdırılması o qədər də asan məsələ deyildir. Bu amillər baxımından göstərilən problemlərin həllində çoxvariantlılıq nəzərdə tutulmalı və maraqlı tərəfdaşlar tapılmalıdır. ET-ın kommersiyalaşdırılmasının yeganə bir yolu yoxdur və buna görə də məsələlərə kompleks baxılmalı, variantlar hazırlanmalıdır. Məsələn: *"Konkret qrantların ayrılması, lisenziyalaşdırılma, qonorarların müəyyənləşdirilməsi, biznes-inkubatorların yaradılması, təsərrüfat*

*hesablı elmi-tədqiqar kollektivlərin formalaşdırılması və s. bu kimi formalardan istifadə etməklə ET-ın nəticələrinin kommersiyalaşdırılmasında daha yaxşı uğurlar əldə etmək olar"*[1]. Biz də hesab edirik ki, belə şəraitdə ET-nin nəticələrinin davamlı şəkildə tətbiq proseslərinə cəlb olunması mümkünləşər. Eyni zamanda, elmi-tədqiqat təşkilatlarının büdcə vasitəsilə maliyyələşdirilməsi məhdud xarakter daşıyır və dövlət tərəfindən ayrılan vəsaitlərdən çevik istifadə edilməsi, o cümlədən: *"elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması proselərinin təşkilinə yönəldilməsi mürəkkəb bir prosesdir, bu yolda baryerlər də az deyildir, bürokratiyalar vardır"*[2]. Buna görə də, elmi-tədqiqat müəssisələri sərbəst şəkildə əldə etdikləri yeni innovasiyaların tətbiqi vasitəsilə dayanıqlı maliyyə resurslarına çıxışı təmin etməkdə xeyli maraqlıdırlar.

Qeyd edək ki, elmi fəaliyyətin kommersiyalaşdırılması sistemli yanaşmanı tələb etdiyindən, hər bir mərhələdə təsirli fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiqi vacib şərtlərdəndir. Xüsusilə, elmi nəticələrin tətbiqi proseslərinə yönəldilən investisiyaların səmərəlilik məsələləri maksimum obyektiv şəkildə baxılmalı və qiymətləndirilməlidir. Bununla bağlı olaraq, bir qrup qiymətləndirmə metodlarından: *1) investisiyaların səmərəliliyin hesablanması; 2) yatırılan investisiyaların rentabellik indeksinin hesablanması; 3) investisiyaların daxili gəlir normalarının hesablanması; 4) investisiyaların geriödəmə müddətənin müəyyənləşdirilməsi və 5) investisiyaların səmərəlilik əmsallarının hesablanması metodlarından istifadə olunması məqsədəuyğundur*[3].

ET-ın nəticələrinin kommersiyalaşdırılmasının təşkili proseslərində səmərəliliyi ilə seçilən praktiki fəaliyyət alətlərinin sxemini şəkil 1-də verilmişdir:

---

[1] Fletcher AC. Bourne P.E. Ten Simple Rules To Commercialize Scientific Research // PLoS Comput Biol. – 2012. 8(9), – s. 64.

[2] Caulfield, T., Harmon, S.H., Joly, Y. Open science versus commercialization: a modern research conflict? // Genome Med 4, 17, 2012. – s. 43.

[3] Устинов, А.Э. Коммерциализация научной деятельности. – Казань: Изд-во КФУ, – 2017. – s. 19.




**Şəkil 1. Elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının təşkili proseslərində səmərəliliyi ilə seçilən praktiki fəaliyyət alətlərinin sxemi**
*Mənbə: müəllif tərəfindən ümumiləşdirilmişdir.*

***Bunlarla bərabər, elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması məqsədilə texnologiya transferinin idarə edilməsi konsepsiyası***nın işlənilməsi və həyata keçirilməsi tələb olunur. Bu konsepsiyanın üç əsas tərkib hissəsini fərqləndirmək istərdik: 1) transferin hərtərəfli hazırlanması (texniki audit); 2) transferin koordinasiyası və nəzarət; 3) nəticələrin qiymətləndirilməsi. ET-ın nəticələrinin kommersiyalaşdırılmasının xüsusiyyətləri inkişafın aparıldığı elm sahəsindən, texnologiyanın həyat dövrünün müddətindən və onun istifadə istiqamətindən birbaşa asılıdır. Texnologiyanın ötürülməsinin təşkilində ən mühüm və həcmli məsələ texnologiyanın potensialının, onun həyata keçirilməsinin mümkünlüyünün və innovativliyinin, bazar cəlbediciliyinin qiymətləndirilməsidir. Yeniliyin yaradılması üçün resursların və maddi-texniki bazanın düzgün qiymətləndirilməsi vacibdir. Keyfiyyətli idarəetmə sisteminin əsas meyarları əsasında bütövlükdə sənaye üzrə qiymətləndirmə parametrlərini düzgün müəyyənləşdirmək lazımdır. Bütün bunlarla yanaşı, bu transfer mərkəzi elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi, elmi və

innovativ fəaliyyətin inkişafının stimullaşdırılması, fundamental və tətbiqi tədqiqatlar, elmi-tədqiqatların və innovasiyaların nəticələrinin kommersiyalaşdırılması baxımından da əhəmiyyəli rola malik ola bilər[4].

İşin **"Azərbaycanda elmi-tədqiqatlarin nəticələrinin kommersiyalaşdirilmasi proseslərinin təhlili və qiymətləndirilməsi"** adlı **ikinci fəslində** ölkədə elmi-tədqiqat işlərinin təşkili və bu sahədə müasir vəziyyətin təhlili, elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təhlili və qiymətləndirilməsi və elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının biznes mühitinin yaxşılaşdırılması potensialının qiymətləndirilməsi verilmişdir.

Ölkəmizdə elmi-tədqiqat işlərinin intensivləşdirilməsi və bu sahədə konkret nəticəyönlü işlərin görülməsi, əldə olunan elmi-tədqiqat nəticələrinin istehsal proseslərində tətbiqini sürətləndirən mühitin yaradılması, infrastrukturun formalaşdırılması, ixtisaslaşdırılmış qurumların təşkil edilməsi məsələləri hələ ki, yaxşı vəziyyətdə deyildir.

Cədvəl 1-də 2010-2023-cü illərdə Azərbaycanda elm sahəsinin əsas göstəriciləri təhlil olunmuşdur.

Cədvəl 1-dən göründüyü kimi, 2010-2023-cü illərdə ölkəmizdə dövlət büdcəsindən elmə çəkilən xərclər 86,2 % artaraq, 2023-cü ildə 193,6 milyon manat olmuşdur. Amma, paradoks haldır ki, 2010-cu ildə elmə çəkilən xərclər ölkə ÜDM-nə nisbətən 0,22%, dövlət büdcəsinin xərclərinə nisbətən 0,8% təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici ÜDM-ə nisbətdə 0,16% səviyyəsində olmuşdur. Buradan belə bir nəticəyə gəlmək olar ki, elmə çəkilən xərclər əslində azalmışdır. Bundan başqa, ali təhsil müəssisələrində elmi-tədqiqatlar aparanların sayı 10,4 min nəfərdən 9,5 min nəfərə qədər azalmışdır. Ümumiyyətlə, hesab edirik ki, Azərbaycanda elmə çəkilən xərclərin əhəmiyyətli səviyyədə artırılmasına ehtiyac vardır və bu istiqamətdə zəruri tədbirlərin görülməsində gecikmələrin olduğu fikrindəyik.

---

[4] Əliyev, Ə.Q. Elmi nəticələrin kommersiyalaşdırılması proseslərinin idarə olunması problemləri. İnformasiya cəmiyyəti problemləri,–2021. №2, – s. 53.

**Cədvəl 1**

**Azərbaycan Respublikasında elm sahəsinin əsas göstəriciləri (2010-2023-cü illər)**

| Göstəricilər: | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İlin sonuna, nəfər | | | | | | | | | | | | | | |
| elmlər doktorları | 843 | 933 | 1 329 | 1 392 | 1554 | 1534 | 1476 | 1414 | 1415 | 1466 | 1433 | 1351 | 1 422 | 1382 |
| fəlsəfə doktorları | 3 554 | 3 727 | 5 433 | 5 444 | 6568 | 6532 | 6296 | 6243 | 6137 | 6302 | 6218 | 5819 | 5 845 | 5498 |
| Bundan başqa, elmi-tədqiqat bölmələrinin ştatında olmayan, lakin tədqiqat və işləmələri yerinə yetirən ali təhsil müəssisələrində çalışan elmi pedaqoji işçilərin sayı, nəfər | **10379** | **10229** | **10217** | **10077** | **10026** | **9910** | **9676** | **5741** | **7069** | **8415** | **9932** | **9007** | **8503** | **9514** |
| onlardan: | | | | | | | | | | | | | | |
| elmlər doktorları | 1 045 | 1 016 | 938 | 859 | 956 | 961 | 1044 | 624 | 800 | 993 | 1034 | 938 | 786 | 964 |
| fəlsəfə doktorları | 4 847 | 4 787 | 5 011 | 4 135 | 5121 | 5342 | 5006 | 2976 | 3775 | 4537 | 4834 | 4512 | 4154 | 4455 |
| Akademiklərin sayı - cəmi | **57** | **55** | **52** | **49** | **73** | **65** | **74** | **73** | **71** | **68** | **63** | **59** | **57** | **56** |
| Müxbir üzvlərinin sayı - cəmi | **109** | **105** | **100** | **97** | **120** | **113** | **115** | **113** | **109** | **105** | **95** | **89** | **87** | **86** |
| İl ərzində | | | | | | | | | | | | | | |
| Dövlət büdcəsindən elmə çəkilən xərclər: | | | | | | | | | | | | | | |

*Cədvəl 1-in davamı*

| | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| milyon manat | 92,8 | 106,1 | 116,7 | 117,0 | 124,2 | 113,2 | 110,2 | 109,8 | 117,8 | 122,3 | 143,6 | 151,8 | 167,8 | 193,6 |
| ümumi daxili məhsula nisbətən, faizlə | 0,22 | 0,20 | 0,21 | 0,20 | 0,21 | 0,21 | 0,18 | 0,16 | 0,15 | 0,15 | 0,20 | 0,16 | 0,13 | 0,16 |
| dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə | 0,8 | 0,7 | 0,7 | 0,6 | 0,7 | 0,6 | 0,6 | 0,6 | 0,52 | 0,50 | 0,54 | 0,55 | 0,52 | 0,53 |
| Tədqiqat və işləmələrə çəkilən daxili xərclər: | | | | | | | | | | | | | | |
| milyon manat | 92,8 | 109,8 | 117,3 | 122 | 123,8 | 120,9 | 124,7 | 129,9 | 147,5 | 163,9 | 162,5 | 194,2 | 202,7 | 223,6 |
| ümumi daxili məhsula nisbətən, faizlə | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 | 0,2 |
| Tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlər, milyon manat | **97,6** | **95,2** | **88** | **107,2** | **122,2** | **114,2** | **129,5** | **157,4** | **149,1** | **162,8** | **159,5** | **142,2** | **116,1** | **103,7** |

*Mənbə: ARDSK. https://stat.gov.az/source/education/.*

Diaqram 1-də isə Azərbaycanda tədqiqatları yerinə yetirən təşkilatların sayı verilmişdir.




**Diaqram 1. Azərbaycanda tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı, 2000-2023-cü illər, ilin sonuna**

*Mənbə: ARDSK-nın statistik nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır - https://www.stat.gov.az/*

Diaqram 1-dən baxsaq, görərik ki, 2000-2023-cü illərdə Azərbaycanda tədqiqat və işləmələri yerinə yetirən təşkilatların sayı heç də artmamışdır, məsələn ET müəssisələrin sayı 2000-ci ildə 95 olmuşdursa, 2023-cü ildə bu göstərici 88 təşkil etmişdir. Amma, ali təhsil müəssisələrinin sayı həmin dövrdə 25-dən 43-a qədər artmışdır.

Cədvəl 2-də 2010-2023-cü illər üzrə Azərbaycanda yerinə yetirilmiş elmi-texniki işlərin həcminin dinamikası təhlil olunmuş və son illərdə müəyyən qədər artımın olduğunu görmək mümkündür. 2023-cü ildə ET işlərinin həcmi 2022-ci illə müqayisədə 9 %-ə yaxın artmışdır. Eyni zamanda, hesab edirik ki, bu işlər ölkəmizdə baş verən sosial-iqtisadi inkişaf proseslərinə və hədəflərinə uyğun deyildir, mövcud elmi potensialdan zəif istifadə edilməsi diqqət çəkir və bu istiqamətdə daha təsirli tədbirlərin görülməsi əldə olunan ET nəticələrinin istehsal proseslərinə tətbiqini intensivləşdirməklə fəallığı artırmaq mümkündür.

**Cədvəl 2**

**Azərbaycanda yerinə yetirilmiş elmi-texniki işlərin həcminin dinamikası (2010-2023-cü illər)**

| Göstəricilər: | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | | | | | | | | | | |
| **Elmi-texniki işlərin həcmi - cəmi, min manat** | **98662,1** | **116585,1** | **118565,0** | **114783,9** | **135145,2** | **152601,0** | **151179,9** | **189910,5** | **181841,5** | **197788,8** |
| o cümlədən: | | | | | | | | | | |
| fundamental tədqiqatlar | 48489,2 | 54529,8 | 59977,6 | 60159,3 | 69999,0 | 86639,3 | 86147,8 | 108996,5 | 133033,1 | 137023,6 |
| tətbiqi tədqiqatlar | 20093,2 | 16159,3 | 16370,9 | 15793,9 | 15390,8 | 14109,7 | 10333,2 | 14 002,3 | 13862,3 | 19942,1 |
| layihə-konstruktor və texnoloji işlər | 11948,2 | 16070,3 | 7135,6 | 5173,2 | 22389,1 | 12576,7 | 18062,5 | 12 921,1 | 1041,2 | 1150,2 |
| sınaq nümunələrinin, dəstlərin, məmulatların (məhsulların) hazırlanması | 1 605,1 | 2564,0 | 5851,6 | 8595,8 | 8 632,7 | 8 383,4 | 6 216,2 | 18 841,7 | 2410,5 | 2136,7 |
| tikinti üçün layihə işləri | 1 027,6 | 3 220,8 | 10090,4 | 8 447,2 | 245,2 | 10987,3 | 7 760,2 | 12102,0 | 4076,7 | 4541,1 |
| elmi-texniki xidmətlər | 15498,8 | 24040,9 | 19138,9 | 16614,5 | 18488,2 | 19 04,6 | 22660,0 | 23046,9 | 27437,7 | 32995,1 |
| **Öz qüvvəsi ilə yerinə yetirilmiş işlər** | | | | | | | | | | |
| **Elmi-texniki işlərin həcmi - cəmi** | **96288,6** | **112966,7** | **110912,9** | **103228,7** | **119249,9** | **151864,4** | **151179,9** | **188898,4** | **181841,5** | **197788,8** |
| o cümlədən: | | | | | | | | | | |

*Cədvəl 2-nin davamı*

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| fundamental tədqiqatlar | 46830,6 | 52042,0 | 53599,2 | 49931,2 | 56057,4 | 86614,8 | 86147,8 | 108746,5 | 133033,1 | 137023,6 |
| tətbiqi tədqiqatlar | 19621,7 | 15527,9 | 15399,2 | 14607,4 | 13 78,8 | 14018,5 | 10333,2 | 13243,3 | 13862,3 | 19942,1 |
| layihə-konstruktor və texnoloji işlər | 11818,0 | 15738,3 | 7135,6 | 5173,2 | 21847,4 | 12 576,7 | 18062,5 | 12921,1 | 1041,2 | 1150,2 |
| sınaq nümunələrinin, dəstlərin, məhsulların hazırlanması | 1 491,9 | 2564,0 | 5 851,6 | 8 595,8 | 8 632,7 | 8 383,4 | 6 216,2 | 18841,7 | 2410,5 | 2136,7 |
| tikinti üçün layihə işləri | 1 027,6 | 3220,8 | 9788,4 | 8306,6 | 245,4 | 10366,4 | 7760,2 | 12102,0 | 4076,7 | 4541,1 |
| elmi-texniki xidmətlər | 15498,8 | 23873,7 | 19138,9 | 16614,5 | 18488,2 | 19904,6 | 22660,0 | 23043,8 | 27437,7 | 32995,1 |

*Mənbə: Azərbaycanda təhsil, elm və mədəniyyət.* - https://stat.gov.az/source/education/

**Cədvəl 3**

**Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri üzrə bölgüsü, (2010-2023-cü illər)**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Tədqiqat və işləmələrə çəkilən daxili xərclər - cəmi, min manat,** o cümlədən maliyyə mənbələri üzrə: | 92073,2 | 109809,8 | 117347,1 | 121968,0 | 123804,0 | 120943,6 | 124721,3 | 12971,8 | 147468,3 | 163890,4 | 16252,5 | 194197,3 | 202676,9 | 223639,5 |
| büdcə vəsaiti | 81823,2 | 98511,7 | 103975,6 | 82913,9 | 85397,0 | 79530,0 | 85291,8 | 87270,1 | 101323,2 | 120553,8 | 122735,5 | 153825,5 | 168046,6 | 179263,7 |
| büdcədən kənar vəsait | 1730,6 | 804,6 | 1818,0 | 734,4 | 640,3 | 353,9 | 493,2 | 923,5 | 824,9 | 950,8 | 1 271,2 | 1 556,7 | 2220,7 | 1823,4 |
| öz vəsaiti | 6080,6 | 6920,6 | 5082,2 | 5596,9 | 5601,4 | 7073,3 | 10760,9 | 13805,0 | 14073,6 | 12130,7 | 9436,2 | 9043,6 | 13373,4 | 18852,2 |
| sifarişçinin vəsaiti | 2128,8 | 3458,6 | 6230,7 | 31487,7 | 31213,3 | 33482,4 | 26375,6 | 27772,0 | 31246,6 | 30255,1 | 29009,6 | 29681,3 | 18964,7 | 23696,7 |
| ali təhsil müəssisələrini saxlamaq üçün büdcə təxsisatları | 289,1 | 114,3 | 200 | 966,4 | 767,6 | 504 | 1799,8 | - | - | - | - | - | - | - |
| xarici mənbələrin vəsaiti | 20,9 | - | 40,6 | 268,7 | 184,4 | - | - | 101,2 | - | - | - | 90,2 | 71,5 | 3,5 |

*Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib.* https://stat.gov.az/source/education/

Cədvəl 3-də isə 2010-2023-cü illərdə Azərbaycanda tədqiqat və işləmələrə çəkilən daxili xərclərin maliyyə mənbələri üzrə bölgüsü əks olunmuşdur. Bu sahəyə çəkilən xərclərin əhəmiyyətli hissəsi, məsələn, 2023-cü ildə 80,1 %-i büdcə vəsaitlərindən formalaşmışdır. Şübhəsiz bu cür vəziyyət heç də ürəkaçan deyildir və müxtəlif mənbələrdən maliyyə resurslarının cəlb edilməsi, bu proseslərin stimullaşdırılması tədbirlərinin görülməsinə ehtiyac vardır.

Diaqram 2-də Azərbaycanda 2000-2023-ci illərdə ET-a çəkilən ümumi xərclərin dinamikası verilmişdir. Baxılan dövr ərzində ET-yə çəkilən xərclər 14,2 dəfə artmış və 2023-cü ilin yekununda 225,4 milyon manat səviyyəsində qeydə alınmışdır.




**Diaqram 2. Azərbaycanda 2000-2023-cü illərdə ET-a çəkilən ümumi xərclərin dinamikası, min manat**

*Mənbə: ARDSK-nın statistik nəşrləri üzrə müəllif tərəfindən hazırlanmışdır - https://stat.gov.az/source/education/*

Ölkəmizdə ET-la məşğul olan müəssisələrin, təşkilatların və universitetlərin bazar iqtisadiyyatı münasibətləri şəraitində işləmələrinin daha səmərəli təşkil edilməsi nöqteyi-nəzərindən faktiki vəziyyətin real olaraq qiymətləndirilməsi üçün suallar şəkilində göstəricilər sisteminin formalaşdırılmasını vacib hesab etmişik (bax: şəkil 1) .

- ET-ın nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin qanunvericilik bazasının adekvatlığı nə səviyyədədir?
- Yaradılan elmi-tədqiqat və innovasiya infrastrukturu nə dərəcədə adekvatdır?
- Elmi-tədqiqat işləri hansı maliyyə vəsaiti hesabına aparılır?
- Elmi-tədqiqat işlərinin nəticələrinin sınaqdan keçirilməsi üçün müvafiq şərait vardır?
- Elmi-tədqiqatın nəticələri harada toplanılır, kimlərə təqdim olunur və hansı səviyyədə istifadə üçün təqdim edilir?
- ET-ın nəticələrinin kommersiyalaşdırılması üçün fəaliyyət strategiyası varmı?
- ET-ın nəticələrinin kommersiyalaşdırılması mexanizmləri nədən ibarətdir və əsas məqsədlər nədir?
- ET-ın nəticələrinin kommersiyalaşdırılması baxımından hansı hüquqi və iqtisadi mexanizmlərə maliksiniz?

**Şəkil 1. Elmi-tədqiqat müəssisələrinin, təşkilatlarının və universitetlərin bazar iqtisadiyyatı şəraitində ET-ın nəticələrinin kommersiyalaşdırılması fəaliyyətinin qiymətləndirilməsi göstəriciləri**

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.*

Dövlət tərəfindən elm və texnikanın nəticələrinin kommersiyalaşdırılması kifayət qədər sistemli yanaşmanı və stimullaşdırıcı tədbirlərin görülməsini şərtləndirir. Bununla bağlı olaraq: 1) vergi tətilləri; 2) vergidən azad olmalar; 3) gömrük güzəştləri; 4) gömrük rüsumlarından azad olmaq asan qeydiyyat proseslərinin müəyyənləşdirilməsi; 5) infrastrukturun yaradılması üçün ərazilərin ayrılması və 6) eyni zamanda onların bu sahədə olan kreativ iqtisadiyyat subyektləri ilə ET müəssisələrinin inteqrativliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi zərurəti vardır. Bu halda: *“Dövlət dəstəyi mexanizmlərinin məqsədli*

*və kifayət qədər uzaq perspektivə hesablanması və istiqamətlənməsi vacibdir”*[5].

Cədvəl 4-də Azərbaycanda ET-ın nəticələrinin kommersiyalaşdırılması proseslərinin GZİT təhlili verilmişdir.

**Cədvəl 4**

**Azərbaycanda elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması proseslərinin GZİT təhlili**

| GÜCLÜ TƏRƏFLƏR | ZƏİF TƏRƏFLƏR |
|---|---|
| – Ölkədə elmi-tədqiqatların aparılması üçün müvafiq şəraitin yaradılması perspektivləri vardır;<br>– Azərbaycanda innovasiyalara və yeni texnoloji uklada keçid istəyi yüksəkdir; Son 10–illiklərdə texnoloji sahələrdə yüksək yeniliklərin əldə edilməsi prosesləri genişlənməkdədir;<br>– Ölkədə yüksək peşəkarlığa malik kadrlar formalaşmaqda və inkişaf etməkdədir;<br>– İnnovasiya və texnoloji sahədə fəaliyyəti stimullaşdıran qanunvericilik aktları qəbul etmək mümkündür;<br>– Azərbaycanda artıq neft-qaz sahəsində texnoloji inkişaf təmin edilməkdədir; Hazırda Azərbaycanda qeyri-neftqaz sahələrinin inkişafı prioritetdir və bu sahələrdə elmi-tədqiqatların nəticələrinin tətbiqi üçün əlverişli şərait vardır və s. | – ölkədə hələ də innovasiyaların işlənilməsi və innovasiya fəaliyyəti haqqında qanunvericilik bazası yoxdur;<br>– Azərbaycanda əqli mülkiyyətin qorunması istiqamətində dünya təcrübəsinin tətbiqi məsələlərində hələ də problemlər var;<br>– ölkədə elm və texnologiyalar bazarı inkişaf etməyib;<br>– Et-a münasibət hələ də konservativ və köhnə olaraq qalmaqdadır;<br>– yəni sovet dövründən qalma ənənələr, bir çox bu qəbildən olan təşkilatlarda hələ də mövcuddur;<br>– Azərbaycanda ET-ın fundamental şəkildə aparılması və motivasiyanın təmin edilməsi hələki zəifdir;<br>– elm adamlarının maddi vəziyyətləri onların yüksək səviyyədə məhsuldarlıqla çalışmasına imkan vermir;<br>– Azərbaycanda innovasiyaların mənimsənilməsi, tətbiqi və alınan elmi-tədqiqat nəticələri arasında yeni innovativ məhsulların istehsalı prosesləri zəif gedir və s. |

[5]Дементьева, А.К. Формирование и реализация механизма коммерциализации результатов инновационной деятельности вуза. Дисс. канд. экон. наук. Ульяновск, – 2018. – s. 84.

*Cədvəl 4-ün davamı*

| İMKANLAR | TƏHLÜKƏLƏR |
|---|---|
| – ölkədə elmi-tədqiqat müəssisələrinin işinin yenilənməsi və intensivləşdirilməsi imkanları vardır;<br>– hazırda aparılan struktur dəyişiklikləri pozitiv nəticələri əldə etməyə əlavə stimullar verə bilər;<br>– elm və texnologiyalara maraq yüksək səviyyədədir;<br>– texnoloji inkişaf dövrün tələbləri kimi dərk olunur və bundan istifadə edilməsi hədəfləri vardır;<br>– iqtisadiyyatın yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi potensialı mövcuddur;<br>– Azərbaycanda ənənəvi sənaye sahələrində elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması imkanları kifayət qədərdir;<br>– Ölkədə fəaliyyət göstərən elmi-tədqiqat instititutları və universitetlər son illərdə dünya təcrübəsindən bəhrələnməkdə və texnoparkların yaradılmasında aldıqları elmi nəticələrin istehsal proseslərinə tətbiqində maraqlıdırlar və s. | – Azərbaycanda elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması proseslərinin gecikdirilməsi;<br>– problemin qalması ölkədən “beyin axını”nı sürətləndirir və daha çox ixtisaslı kadrların başqa ölkələrə getməsini tezləşdirir;<br>– ölkədə elm və texnologiyalar bazarının inkişaf etməməsi;<br>– ET-ın nəticələrinin kommersiyalaşdırılmaması elmə marağı azaldır və bu sahədəki gəncləri başqa sahələrə getməyə sövq edir;<br>– elmi-tədqiqatların nəticələrinin sənaye və xidmət sahələrinə tətbiq edilməməsi bu sahədəki fəaliyyəti səmərəsiz edir və kadr axıcılığına səbəb olur və s. |

*Mənbə: GZİT təhlilini müəllif hazırlamışdır.*

Azərbaycanda elmə və tədqiqatlara çəkilən xərclərin elmi-texniki işlərin ümumi dəyərinə təsirini müəyyənləşdirmək üçün korrelyasiya-reqressiya təhlilini aparmışıq (bax: cədvəl 5-6).

Cədvəl 5 və verilən məlumatlar, aparılan təhlillərdən yanaşsaq, qeyd etmək olar ki, tədqiqatlara və işləmələrə çəkilən xərclər elmi-tədqiqat müəssisələrinin fəaliyyətinə müsbət təsir göstərir. Bu məlumatlar əsasən Dövlət Statistika Komitəsinin rəsmi nəşrlərindən götürülmüşdür. Aparılan təhlildə daha etibarlı nəticə əldə etməkdən ötrü, dövlət büdcəsindən elmə çəkilən xərclərin (Y) və elmi-texniki

**Cədvəl 5**

| Dependent Variable: LOG(Y1) | | | | |
|---|---|---|---|---|
| Method: Least Squares | | | | |
| Date: 05/30/23 Time: 23:44 | | | | |
| Sample: 2000 2021 | | | | |
| Included observations: 22 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| LOG(X1) | 1.079634 | 0.049241 | 21.92535 | 0.0000 |
| C | 0.461361 | 0.210450 | 2.192263 | 0.0404 |
| R-squared | 0.960058 | Mean dependent var | | 4.065292 |
| Adjusted R-squared | 0.958060 | S.D. dependent var | | 0.934367 |
| S.E. of regression | 0.191350 | Akaike info criterion | | -0.382913 |
| Sum squared resid | 0.732299 | Schwarz criterion | | -0.283727 |
| Log likelihood | 6.212043 | Hannan-Quinn criter. | | -0.359548 |
| F-statistic | 480.7212 | Durbin-Watson stat | | 1.666075 |
| Prob(F-statistic) | 0.000000 | | | |

Dövlət büdcəsindən elmə çəkilən xərclər+ Elmi-texniki işlərin həcmi - cəmi

LOG(Y1) = 1.0796338788×LOG(X1) - 0.461360716197
(0.049241) (0.210450)

işlərin həcminin (X) reqressiya təhlilini birgə baxmışıq. Model loqarifm olunub və nəticədə $R^2 \approx 95$; daha dəqiq 94,44 % olduğu halda X Y-in dəyişməsinə səbəb olur. Başqa sözlə, reqressiya təhlilinin dəqiqliyi kifayət qədər yüksəkdir. Yerdə qalan 5,56 % səviyyəsində Y dəyişməsinin izahı isə modelin hazırlanmasında buraxılan spesifik səhflərlə bağlıdır. Darbin-Uotson-un göstəriciləri isə nəzərdə tutulan səviyyədədir, bu isə avtokorrelyasiyanın olmadığını göstərir. Sonra biz əldə etdiyimiz modeli birmənalı olub-olmadığını (heteroscedastic) baxmışıq və bunu Qoldfeld-Kvandt testi əsasında aparmışıq.

Sərbəstlik dərəcəsi sayı $v_1$ olmaqla:

$$v_1 = v_2 = (n – c - 2m)/2 = (22 - 5 - 2*1)/2 = 7.5$$

$$Fkp\ (7.5;7.5) = 5.32$$

F-statistikasını qururuq: F = 290.45/177.72 = 1.63

Nəzərə alsaq ki, $F < F_{kp} = 5.32$, bu halda modelin birmənalı olmaması hipotezasını (heteroscedastic) irəli sürə bilərik.

Cədvəl 6-də isə tədqiqat və işləmələrə çəkilən daxili xərclərlə elmi-texniki işlərin həcminin reqressiya təhlilinə baxmışıq.

**Cədvəl 6**

Dependent Variable: LOG(Y2)
Method: Least Squares
Date: 05/30/23 Time: 23:49
Sample: 2000 2021
Included observations: 22

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| LOG(X1) | 1.000161 | 0.027430 | 36.46247 | 0.0000 |
| C | 0.021236 | 0.117231 | 0.181148 | 0.0481 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.985180 | Mean dependent var | 4.214677 |
| Adjusted R-squared | 0.984439 | S.D. dependent var | 0.854480 |
| S.E. of regression | 0.106592 | Akaike info criterion | 1.553115 |
| Sum squared resid | 0.227236 | Schwarz criterion | 1.453929 |
| Log likelihood | 19.08426 | Hannan-Quinn criter. | 1.529749 |
| F-statistic | 1329.511 | Durbin-Watson stat | 1.641442 |
| Prob(F-statistic) | 0.000000 | | |

Aparılan təhlil nəticəsində tədqiqat və işləmələrə çəkilən daxili xərclər+ Elmi-texniki işlərin həcmi - cəmi belə alınmışdır:

LOG(Y2) = 1.00016091114×LOG(X1) + 0.0212360953563
(0.027430) (0.117231)

Sonra biz daxili xərclərin aparılan elmi tədqiqatlara nə dərəcədə təsir etdiyinə baxmışıq. Alınan model göstərmişdir ki, daxili xərclər dövlət büdcəsindən çəkilən xərclərlə müqayisədə daha güclü təsirə malikdir. Burada $R^2$=0,98, daha dəqiq desək 97,14 % olduğu halda, X Y-in dəyişməsinə səbəb olur. Başqa sözlə, reqressiya təhlilinin dəqiqliyi kifayət qədər yüksəkdir. Yerdə qalan 2.86% səviyyəsində Y-in dəyişməsinin izahı isə modelin hazırlanmasında buraxılan səhvlərlə və nəzərdə tutulmayan hallarla bağlıdır. Daha sonra Y-in X-dən asılılığı öyrənilmişdir. Bu mərhələdə loqarifm cüt xətti reqressiya götürülmüşdür. Onun parametrləri isə ən kiçik kvadratlar metodu ilə qiymətləndirilmişdir. Asılılığın statistik əhəmiyyəti isə Fişer meyarı və determinasiya əmsalının köməyi ilə yoxlanılmışdır. Müəyyən

edilmişdir ki, aparılan tədqiqatların 97,14 % situasiyalarında Y-in ümumi variativliyi X-in dəyişməsi ilə izah olunur. İqtisadi ifadə və məzmun kontektində qeyd edə bilərik ki, modelin parametrləri baxımından X-in bir vahid artması Y-in orta hesabla 1.000 vahid elmi-texniki işlərin artımına gətirib çıxarır. Reqressiya asılılığının əldə olunmuş qiymətləndirilməsi onu proqnoz üçün istifadə etməyə imkan verir. Məsələn, x=2, Y -5.15-dən 10.19-vahidədək artacaq və 95% ehtimalla bu asılılıq dərəcəsindən kənara çıxmayacaqdır. Sonra Qoldfeld-Kvandt testi əsasında modelin birmənalı olub-olmadığını (heteroscedastic) müəyyənləşdirək.

Sərbəstlik dərəcəsi sayı $v_1$ olmaqla:

$$v_1 = v_2 = (n - c - 2m)/2 = (22 - 5 - 2*1)/2 = 7.5$$

$$Fkp\ (7.5\ ;\ 7.5) = 5.32$$

F-statistikasını qururuq: $F = 748.83/93.77 = 7.99$

Nəzərə alsaq ki, $F > Fkp = 5.32$, bu halda modelin birmənalı olmaması hipotezası (heteroscedastic) imtina edilir.

Dissertasiya işinin **"Azərbaycanda elmi-tədqiqatlarin nəticələrinin kommersiyalaşdirilmasi proseslərinin intensivləşdirilməsi istiqamətləri"** adlı **üçüncü fəsildə** ölkənin elmi-tədqiqat müəssisələrində və universitetlərində kommersiyalaşdırılma proseslərinin gücləndirilməsi, elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının innovasya-investisiya cəlbediciliyinin artırılması yolları və elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının genişləndirilməsi perspektivləri verilmişdir.

Elmi fəaliyyətin nəticələrinə əsasən iqtisadi universitetlər tərəfindən təklif oluna bilən bir qrup kommersiya məhsullarının növlərini tədqiqatçı Y.E.Qorbaşko tərəfindən ayrılması təklif olunur: 1) dövlət və ya özəl təşkilatlar tərəfindən istifadə oluna bilən analitik məhsul; 2) nəşriyyat məhsulları; 3) tətbiqi xarakterli təhsil məhsulları; 4) ekspert və konsaltinq fəaliyyəti[6]. Hesab edirik ki, tədqiqatçı haqlıdır, belə ki, qeyd olunan xidmətlər kifayət qədər tələb olunandır. Universitetlərdə ET-ın nəticələrinin

[6]Горбашко, Е.А. Коммерциализация результатов научных разработок вузов / Е.А.Горбашко, И.Г.Головцова, Д.Н.Десятко // Стандарты и качество.–2018. № 4.–с. 82.

kommersiyalaşdırılmasında ən çox marağı olan texnoparklardır. Tədqiqatçılar Ə.Q.Əliyev və R.O.Şahverdiyeva da bi fikirdədirlər: Texnoparklar kiçik və orta innovativ şirkətlərin inkişafı üçün ən əlverişli mühit yaradan, əsasən ET-ın nəticələrinin kommersiya məhsuluna çevrilməsinin və istehsalata tətbiqinin təşkili ilə məşğul olan ən böyük elmi-tədqiqat və istehsalat kompleksləridir[7]. Odur ki, geniş texnoparklar şəbəkəsinin yaradılmasına ehtiyac vardır ki, onların da işi milli məhsulların yüksək texnologiyalar sahəsində rəqabət qabiliyyətinin artırılması üçün perspektivli innovativ sahibkarlıq subyektləri, elmi-tədqiqat müəssisələri və ya ali təhsil müəssisələri ilə əlaqələndirilməlidir.

Azərbaycanda təhsil və elmi müəssisələrin elmi tədqiqatlarının nəticələrinin kommersiyalaşdırılması istiqamətində səmərəli fəaliyyətin təmin edilməsi mexanizminin tərkib elementlərinin blok-sxemi şəkil 2-də verilmişdir.




**Şəkil 2. Azərbaycanda təhsil və elmi müəssisələrin ET-ının nəticələrinin kommersiyalaşdırılması istiqamətində səmərəli fəaliyyətin təmin edilməsi mexanizminin tərkib elementləri blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

[7]Əliyev, Ə.Q., Şahverdiyeva, R.O. İnnovasiya texnoparklarının idarəetmə proseslərində keyfiyyət göstəricilərinin çoxkriteriyalı ekspert qiymətləndirmələri məsələləri. İnformasiya cəmiyyəti problemləri, – 2020. №2, – s.91.

Müasir dövrdə ***ET-ın nəticələrinin daha uğurlu olaraq kommersiyalaşdırılması əsas etibarı ilə "elm-dövlət-biznes" triadasının səmərəli fəaliyyət Konsepsiyası*** *ilə mümkündür* (bax: şəkil 3).




**Şəkil 3. Elmi-tədqiqat nəticələrinin kommersiyalaşdırılması prosesində dövlət, elm və biznesin qarşılıqlı fəaliyyət Konsepsiyası**
*Mənbə: müəllif tərəfindən tərtib olunub.*

**Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir:**

– Dövlətin elm və təhsil sahəsində siyasəti müasir dövrün reallıqlarını nəzərə almalı və ilk növbədə elmin istehsalata tətbiqi istiqamətində olan tədbirlərin sistemli şəkildə baxılması və reallaşdırılması bu siyasətdə öz əksini tapmalıdır;

– ET işlərinin aparılmasına dövlət tərəfindən davamlı şəkildə vəsaitlər ayrılmalı və investisiyalar yatırılmalıdır;

– ET işlərinin kommersiyalaşdırılması məsələləri hər bir dövlətin qanunvericiliyində və bununla bağlı həyata keçirilməsi vacib olan tədbirlərin önündə getməlidir və bu istiqamətdə mükəmməl mexanizmlərin olması vacibdir;

– ET işlərinin həyata keçirilməsi və bununla bağlı işlərin kompleks şəkildə təmin edilməsi üçün sistemli tədbirlərin görülməsi, ET müəssisələrinin maraqlarının artırılması, xüsusi fondların, elm-təhsil fondlarının və bununla bağlı investorların marağına səbəb olacaq əlverişli ET işlərinin ortaya qoyulması dövlətin xüsusi nəzarətində olmalı və bununla bağlı ixtisaslaşdırılmış ET müəssisələrinin fəaliyyəti istiqamətində "dövlət – özəl sektor" əməkdaşlığı gücləndirilməlidir;

– Beynəlxalq səviyyədə ixtisaslaşmış xarici təşkilatlarla və elmi fondlarla, investor-şirkətlərlərlə əməkdaşlığın gücləndirilməsi və ET layihələrinin reallaşdırılması istiqamətində ardıcıl tədbirlər, o cümlədən, stimullaşdırıcı qrant müsabiqələri həyata keçirilməlidir;

– Azərbaycanda ET-nın nəticələrinin kommersiyalaşdırılması prosesləri ilə məşğul olan ixtisaslaşdırılmış mərkəzlərin yaradılması mexanizmləri işlənilməli və ölkə regionları da daxil olmaqla belə mərkəzlərin yaradılması təmin edilməlidir;

– Ölkədə fəaliyyət göstərən ET üsullarının və universitetlərdə əldə olunan ET-ın nəticələrini özündə əks etdirən və sənaye, kommersiya əhəmiyyətli təkliflərin, ixtira və kəşflərin məlumat portalının yaradılması və bununla bağlı ölkə sahibkarlarına, biznes strukturlarına, maraqlı təşkilatlara açıq məlumat bazasının təqdim edilməsi məqsədəuyğun olardı;

– ET-ın nəticələrinin kommersiyalaşdırılması problemlərinin həllinə bu tədbirlərin reallaşdırılması daha səmərəli kömək edə bilər: 1) dövlət-elmi təşkilatlar-biznes strukturları arasında əməkdaşlığın fəal təşviqi, burada dövlət-özəl tərəfdaşlıq institutları, klaster mexanizmləri effektiv mexanizmə çevrilə bilər; 2) vergi güzəştləri və ya vergi tətilləri sistemi vasitəsilə özəl investisiyaların stimullaşdırılması, xüsusi iqtisadi-texnoloji inkişaf zonalarının yaradılması; vençur layihələrinin reallaşdırılması; 3) ET-ın

nəticələrinin kommersiyalaşdırılması üçün birbaşa subsidiyaların ayrılması; 4) bazara daxil olarkən qarşıya çıxan maneələrin aradan qaldırılması və dövlət, regional və yerli səviyyədə kommersiyalaşma prosesinin bütün iştirakçılarının hərəkətlərinin əlaqələndirilməsinin təmin edilməsi; 5) ET-ın nəticələrinin kommersiyalaşdırılması üzrə ixtisaslı mühəndislik, konsaltinq və audit fəaliyyətinin təşkili.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:**


1. Elmi-tədqiqat xidmətlərinin diversifikasiyalaşdırılmasında biznes proseslərinin strateji əhəmiyyəti // – Bakı: "Audit" jurnalı, 2019, 04. – s. 96-108.
2. Elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasının nəzəri-metodoloji aspektləri // – Bakı: AMEA-nın Xəbərləri jurnalı. İqtisadiyyat seriyası, 2020, № 04. – s. 48-56.
3. Azərbaycanda elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması prosesinin idarəetmə mexanizmlərinin gücləndirilməsi məsələləri // – Sumqayıt: "İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər" beynəlxalq elmi konfransın materialları, 8-9 iyul 2020-ci il. – s. 314-318.
4. Universitetlərdə elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik infrastruktur aspektləri // – Sumqayıt: "Azərbaycanın tranzit potensialının iqtisadi inkişafda rolu" mövzusunda respublika elmi konfransının materialları, 22-23 oktyabr 2020-ci il. – s. 308-311.
5. Elmi-tədqiqat xidmətlərinin kommersiyalaşdırılmasının intensivləşdirilməsi yolları // – Bakı: "Geostrategiya", 2020, № 06. – s. 96-100.
6. Azərbaycanda elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində innovatik biznes proseslərinin tətbiqi istiqamətləri // – Bakı: "AMEA-nın Xəbərləri jurnalı, İqtisadiyyat seriyası, 2021, №02. – s.134-143.
7. Elmi-tədqiqat müəssisələrində biznes proseslərinin investisiya cəlbediciliyinin artırılması məsələləri // – Bakı: "Kooperasiya" jurnalı, 2022, № 02. – s.71-79.

8. Важность усиления бизнес процессов в расширении научно-исследовательских услуг в Азербайджане // – Москва: Журнал «Финансовая экономика», 2022, № 04. – с. 360-364.

9. Проблемы и перспективы повышения эффективности бизнес-процессов в диверсификации научно-исследовательских услуг // – Москва: XI Международной Научно-Практической Конференции Современные проблемы цивилизации и устойчивого развития в информационном обществе (шифр – МКПЦР). 20 августа 2022 года – с. 240-249.



Dissertasiyanın müdafiəsi 25 dekabr 2024-cü il tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 23 noyabr 2024-cü ildə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.11.2024

Kağızın formatı: 60x84

Həcm: 41487 işarə

Tiraj: 100 ədəd